# ARAŞDIRMA

## İranın müasir etno-mədəni mənzərəsi

İran İslam Respublikasının rəsmi şəxsləri, məmurları öz çıxışlarında ölkə coğrafiyasında əksəriyyət haqqında danışanda əsasən farsları nəzərdə tuturlar. İran tarixində farsların heç bir vaxt əksəriyyət olmadığını bildiyimiz üçün rəsmi statistikaya müraciət etmək ehtiyacı duyulur. Bu zaman da məlum olur ki, İranda rəsmi statistikanın ictimailəşməsi qadağandır. Hansı tarixi mərhələdə farslar İranda əksəriyyət oldular? Ümumiyyətlə İranın etnik tərkibi haqqında mötəbər məlumatları neçə əldə etmək olar? Bu barədə yazılmış çox sayda elmi, siyasi və kulturolojı yazılar mövcuddur. Lakin son 40 ildə həyata keçirilən məqsədli etno-mədəni proseslər və onun törətdiyi fəsadlar haqqında dəqiq mənzərəni ifadə edən əsərlər yoxdur. Çünki istinad ediləcək mötəbər məlumat mövcud deyil. Etiraf edək ki, İranın 1979-cu il inqilabından əvvəl də ölkədə normal statistika xidməti olmayıb və Pəhləvilər rejimi də etno-mədəni proseslərin manipulyasiyası ilə məşğul olmuşdur.

Əlbəttə ki, müasir qloballaşma bir çox məlumatları aşkara çıxarır. Mobil telefon abonentlərinin sayı, plastik bank kartları, reqionlarda olan fərqli maliyə dövriyyəsi, müxtəlif sosial layihələrin həcmi demoqrafik mənzərə haqqında ümumi məlumat əldə etməyə imkan yaradır. Müşahidələr göstərir ki, İranın şimalında olan Azərbaycan əyalətləri əhalinin sıxlığı, əmək aktivliyi və maliyə əməliyyatlarına görə həmişə oldugu kimi, indi də İranın digər ərazilərindən fərqlənir. Odur ki, İranın siyasi quruluşu və iqtisadi idarəetmə strukturunun bizə verdiyi məlumatları təsnifləndirək.

İran coğrafiyası hazırda 31 ostanla idarə edilir. Qacarlar zamanı "Məşrutə hərəkatı"nın qələbəsi olaraq ölkənin siyasi xəritəsi 5 bölgəyə ayrılmış və onun siyasi mənzərəsini müəyyənləşdirmişdi. Pəhləvilər zamanı siyasi xəritə hissə-hissə dağıdılır və iqtisadi məqsədlərə əsaslanan əyalətlər yaradılırdı. Bu siyasi məqsədlərlə edilsə də iqtisadi amillər göstərilir və proses bu gün də davam edir.

İranın ostanlarda yaşayan əhalisinin 60 faizi şimal, 40 faizi mərkəz və cənub regionlarında məskunlaşıb.

İran islam Respublikasında statistik məlumatlar dövlət sirri hesab edilir və yalnış rəhbərə təqdim edilir. Hətta ölkə prezidenti də bu məlumatları əldə etmək üçün xüsusi icazə almalıdır. Bir müddət keçəndən sonra statistik məlumatların aktuallığı azalır və bəzi düzəlişlərlə məlumatlar ictimailəşdirilir. Açıq olan - 2006, 2011 və 2016-cı il mənbələrində İranda 70.76 milyon əhalinin olduğu haqqında məlumat verilir.

1. Şərqi Azərbaycan - 4 milyon; 2. Qərbi Azərbaycan - 3 milyon; 3. İsfahan - 4.5 milyon; 4. Ərdəbil - 1.5 milyon; 5. Əlborz - 3 milyon; 6. İlam - 0,6 milyon; 7. Buşehr - 1.2 milyon; 8. Tehran - 8.5 milyon; 9. Çaharmahal və Bəxtiyari - 1.2 milyon; 10. Cənubi Xorasan - 0,76 milyon; 11. Xorasan Rəzəvi - 6.5 milyon; 12. Şimali Xorasan - 1 milyon; 13. Xuzistan - 4.5 milyon; 14. Zəncan - 1 milyon; 15. Semnan - 0.7 milyon; 16. Sistan və Bəlucistan - 2.5 milyon; 17. Fars - 4.5 milyon; 18. Qəzvin - 1.5 milyon; 19. Qum - 1.2 milyon; 20. Kürdüstan - 1.7 milyon, 21. Kerman - 0.5 milyon; 22. Kermanşah - 2 milyon; 23. Kohgiluye və Buyer Əhməd – 600 min; 24. Gülistan - 2 milyon; 25. Gilan - 2.5 milyon; 26. Lurestan - 1.7 milyon; 27. Mazandaran - 3 milyon; 28. Hormozqan - 1.4 milyon; 29. Həmədan - 1.8 milyon; 30. Yəzd - 0.5 milyon; 31. Mərkəzi - 1.4 milyon (World Gazetteer: World — largest cities (per geographical entity).

Əhalinin etnik tərkibinə görə yalnız azərbaycanlılar, farslar, kürdlər, lorlar və digər xalqların kompakt yaşayan ostanlarını müəyyənləşdirək. Bu kateqoriyada ən geniş cografiyada yayılanlar, eyni zamanda daha çox ostanda kompakt şəkildə yaşayan etnik qrup azərbaycanlılardır. Etnik tərkibə görə ostanları təsnif etməyə çalışaq.

1.Yalnız türklər-azərbaycanlılar yaşayan ostanlar.

2.Əlli faizdən artıq əhalisinin türklərdən-azərbaycanlılardan ibarət olan ostanlar.

3.Əhalisinin iyirmi faizdən artıqı türklərdən-azərbaycanlılardan ibarət olan ostanlar.

4.Əhalisinin 20 faizə qədəri türk-azərbaycanlı olanlar.

Birinci qrupu Şərqi Azərbaycan ostanı 4 milyon əhalisi, Qərbi Azərbaycan ostanı 3 milyon əhalisi, Ərdəbil ostanı 1.5 milyon əhalisi, Zəncan ostanı 1 milyon əhalisi ilə təşkil edir (2011-ci il məlumatına əsasən ). İranın etibar edilməyəcək statistikası, 2006-cı ildə həyata keçirilən əhalinin ümumi siyahıya alınması əsasında bu ostanlarda 9.5 milyon əhalinin olduğunu elan edir (ölkə üzrə əhalinin 81 milyon olması müqabilində). Müxtəlif mənbələrdə 2006, 2011, 2016-cı illər məlumatları məntiqi nəticələri əldə etmək üçün maneə olaraq tətbiq edilir. Bu məlumatlarla və illik büdcə bölgüsünü sinxronlaşdıraraq optimal mənzərəni üzə çıxarmağa çalışaq.

Verilən məlimarları regionlara görə topladığımız halda bütün ostanlar üzrə 70 milyon əhali müəyyənləşir. Deməli, ümumi göstəricilər 25 faiz azaldılıb. Buna əsaslanaraq ortaya çıxardığımız rəqəmləri 25 faiz artıra bilərik. Bir çox rəqəmlər ümumiyyətlə gülünc bir mənzərə ortaya çıxarır. Məsələn: Bəsrə körfəzinin sahilində yerləşən Buşəhr ostanı tarixi ərəb əhalisi olduğu halda, statistika 2006-cı il siyahıyaalmada 900 min nəfər əhali və onların 90 faizinin fars olduğunu göstərir. Cənubi Xorasan ostanının 760 min (2016-cı il) əhalisi və onların da 90 faizinin fars olduğunu yazsalar da az-çox İranı tanıyanlar bilir ki, o cografiya tarixi əfqan və bəluc torpaqlarıdır. Eyni mənzərəni mərkəzi Bəndər Abbas şəhəri olan Hürmüzqan ostanının əhalisi haqqında da görürük. 1 milyon 400 min nəfər əhalinin 90 faizi fars olaraq göstərilir. Bu statistikalarda son 30 il İranda yaşayan dörd milyondan artıq əfqan yer almır.

İkinci qrupa daxil olan ostanlar: Fars ostanında - 4.5 milyon, Xuzistanda - 4.5 milyon, Xorasan Rəzəvidə - 6.5 milyon, İsfahanda - 4.5 milyon əhali göstərilməklə rəsmi məlumata görə 81 milyonluq ölkə əhalisinin 20 milyonunu burada təmərküzləşdirirlər. Lakin bu 20 milyon əhalinin düzgün dislokasiyası, etnik tərkibi haqqında doğru-düzgün məlumat əldə etmək mümkün deyil. Bu əhalinin sosial ehtiyacları, kommunikasiya və qidalanması kimi məsələlərin öyrənilməsi göstərir ki, bu rəqəmlər siyasi mənzərənin yaradılması məqsədi daşıyır. Məsələn rəsmi məlumata görə Fars ostanında 1 milyon Qaşqayi türkü yaşayır. Şirazlıların dediyinə görə yalnız qaşqayi türkləri 2 milyon yaşayır. Əlbəttə ki, azərbaycanlılar İranın bütün ostanlarında oldugu kimi Şirazda da xeyli sayda məskunlaşıblar.

Eləcə də, Tehran - 8.5 milyon, Həmədan - 1.8 milyon, Əlborz - 3 milyon, Qəzvin - 1.5 milyon, Gülüstan ostanı - 2 milyon (əhalisinin 60 faizini türkmənlər, Xorasan türkləri və azərbaycanlılar təşkil edirlər), Şimalı Xorasan - 1 milyon (rəsmi məlumata görə, əhalisinin 60-80 faizi türklərdır). Rəsmi məlumata görə, Qum ostanının 1 151 672 nəfər (2011) əhalisinin 50 faizi fars, 30 faizi azərbaycanlı və digərləridir. Rəsmi məlumata görə, Mərkəzi ostanda 70 faiz fars, 21 faiz azərbaycanlı və digərləri yaşayır. Bu rəqəmlərdəki 25 faiz fərqini nəzərə almaqla müəyyən olunur ki, əslində türklər 40 faizdən artıq olmalıdır.

Bu qrupa daxil edilən ostanların etnik tərkibi haqqında geniş izahat verməyə ehtiyac var. Məsələn, qeyd olunan siyahıyaalmada (2006-cı il) 8.5 milyon əhalisi olan Tehranın 25 faiz əhalisinin azərbaycanlı oldugu rəsmi etiraf edilir. Lakin türkmənlər, qaşqaylar, hətta Tehranın yerli əhalisi olan dəmavəndlilər və şəhriyarlılar ( yerli türklər) bura daxil edilmir. İnsaf xatirinə qeyd edilməlidir ki, bu “allahsızlar” Tehranda yaşayan çox böyük sayda kürdləri heç statistikaya daxil etməyiblər.

“Azadi” meydanında (Tehranın aftovağzalı bu ərazidə yerləşir) qoca atasını qarşılayan bir kürd mühəndis oğlunun qulağına pıçıltı ilə deyir: “Apar evə qoy, paltarını dəyişdirsin, sonra adam içinə çıxın (atası Kürdüstandan milli paltarı ilə gəldiyindən oğlu utanc duyur).

Əlbəttə ki, Tehran əhalisinin marginallaşdırıldığını bilirik. Tehranın şimalında yaşayan Dəmavəndlilər və cənubunda yaşayan Şəhriyarlılar Tehranın ümumi siyasi və iqtisadi proseslərinə qarışmır və qapalı həyat tərzi sürürdilər. Ölkənin paytaxtı olaraq Qacarlar zamanından bu şəhər “ərbablar” və “nökərlər” şəhəri idi. Hətta, nökər olmaq üçün də fars dilini ləhcəsiz bilməli və danışmalı idin. Tehranda çox sayda yeni ailələr qurulurdu ki, türk və kürd ailələri özlərini fars olaraq təqdim edib, hətta qohum və yaxınları ilə görüşəndə belə ana dilində danışmır ki, “səviyyəm” aşağı düşər. Bu kimi tehranlıların övladları indi bir yüksək səviyyəli azərbaycanlı ilə rastlaşanda nostalji ilə “pedəre bozorge mən həm tork bude...” (mənim də babam türk olub) deyir.

Bu coğrafiyanın etno-psixoloji mənzərəsini daha da geniş təhlil etməyə ehtiyac var. Bu zaman İranın rəsmi siyasətinin nə qədər yanlış və düşünülməmiş oldugunu üzə çıxarmaq mümkündür. Ölkənin passionarlığının pozulması yalnız marginallaşdırılmış islam ilə özünü göstərmir. Bir çox digər səbəblər də mövcuddur.

Üçüncü qrupa daxil olan ostanlar: Rəsmi məlumata görə, Fars ostanının 4.5 milyon əhalisinin 20, İsfahanın 4.5 milyon əhalisinin 20, Gilanın 2.5 miyon əhalisinin 20, Çahar-Mahal və Bəxtiyari ostanının 1 milyon əhalisinin 20 faizini türklər təşkil edir. Qeyd etdiyimiz kimi, məlumatın saxtalaşdırılmasında 25 faiz manipulyasiya olduğunu bildiyimizi nəzərə alaraq 2,5 - 3 milyon nəfərlik fərq üzə çıxır.

Rəzəvi Xorasan ostanının 6.434.501 nəfər əhalisinin (2016) 20 faizə qədərini azərbaycanlılar və türkmənlərin təşkil etdiyi rəsmi etiraf edilir. Rəsmi məlumata görə isə ostan əhalisinin 80 faizi farslardır. Bu əyalətin tarixçəsi və etno-mədəni təhlili ayrıca bir tədqiqatın obyektidir.

Dördüncü qrupa daxil olan ostanlar: 2006-cı ildə aparılmış rəsmi siyahıyaalmaya əsasən Elam ostanında 545.787 nəfər əhali yaşayır. Ümumi olaraq vilayətdə əhalinin əksəriyyətini kürdlər təşkil edirlər. Əhalinin 80 faizini kürd, qalanlarını isə lor, azərbaycanlı və ərəblər təşkil edirlər. 1996-cı il siyahıyaalmasına əsasən, bütün əhalinin cəmi 162 nəfəri (158 nəfəri zərdüşti, 2 nəfəri xristian) müsəlman olmamışdır. Bu cografiya da zəngin etno-mədəni mənzərəsi ilə diqqəti cəlb edir və müstəqil araşdırmalar bu zənginliyin üzə çıxarılmasına yardım edə bilər.

Kohgiluyə və Buyer Əhməd ostanı - İranın cənub-qərbində yerləşir və mərkəzi Yasuc şəhəridir. Ostanın ərazisi 15.563 km²-dir. 2006-cı ildə aparılmış rəsmi siyahıyaalmaya əsasən ostanda 634.299 nəfər əhali yaşayır. Əhalinin 80 faizini lorlar, 10 faizini qaşqaylar və digərləri təşkil edir.

Mazandaranın əhalisi 3 milyona yaxın göstərilir. Əhalinin faiz nisbəti tamamilə gizlədilibsə də məlumdur ki, burada əsasən mazilər, giləklər, talışlar, türkmənlər və azərbaycanlılar yaşayır. Mazandaranda farslar tarixən yaşamayıb. Yalnız Qacarlardan sonra idarəçilik və mərkəzi hakimiyyətin təmsilçiləri olaraq az sayda insan özünü fars olaraq identifikasiya edib.

Yəzd ostanının 500 min əhalisinin olduğu bildirilir və çox böyük faizinin fars olduğu qeyd olunur. Əhalinin əsas xüsusiyyəti onların atəşpərəstliyi ilə müəyyənləşir. Əgər din faktorunu nəzərə almasaq, bu ostanı farsların dominant olduğu bir coğrafiya olaraq müəyyənləşdirə bilərik.

Kermanşah ostanının 2 milyona yaxın əhalisi var. Əsasən kürdlərin məskunlaşdığı bu ərazidə lorlar və azərbaycanlılar da çox böyük sayda yaşamaqdadırlar.

Kerman ostanının əhalisi təxminən 500 mindir və böyük əksəriyyətini bəluclar təşkil edir.

Sistan və Bəlucistanın 2.5 milyon əhalisi var ki, rəsmi məlumata görə onların 65 faizi bəlucdurlar.

2016-cı ilin məlumatına görə, Buşəhr ostanında 1.2 milyon əhalinin 87 faizi farsdır. Bəsrə körfəzinin sahilində yerləşən tarixi ərəb torpaqlarında belə bir faiz göstəricisi şübhəsiz ki, saxtakalıqdır.

700 min əhalisi olan (2016) Semnan ostanında sakinlərin 20 faizə qədərini azərbaycanlılar, türkmənlər və rəsmi məlumata görə, 80 faizini farslar təşkil edir.

Lurestan ostanının əhalisi 1.760.649 nəfərdir (2016) və 90 faizi lorlardır. Bu ostanda əhalinin artımı yüksəkdir, lakin əhali özünü fars olaraq identifikasiya etmir. Farsdilli xalq olmasına baxmayaraq İranda lorları elitar fars mədəniyyətinə inteqrasiya etmirlər.

Bu sistemləşdirilmiş mənzərə İran coğrafiyasında əhalinin dislokasiyası və təxmini etnik mənzərəsini ifadə edir. Lakin bütün İran coğrafiyasında təbii şərtlər, həyat standartları, dövlət dəstəyi, təhsil, səhiyyə və mədəniyyət eyni şəkildə paylanmayıb. Mədəni-maarif sahəsində ən acınacaqlı vəziyyət Bəlucistan və Kürdüstan ostanlarında müşahidə olunur.

Tehran-Şiraz-İsfahan yolu ilə cənuba dogru yollanarsınızsa, yolun ortasında şərqə dogru yol ayrılır və bu böyük bir coğrafiya əsasən bəlucların yaşadığı ərazi olaraq tanınır. Bu məntəqə ilə hərəkət məhdudlaşdırılıb və ora “məntəqeye alude” (xəstəlik, epidemiya zonası) kimi müəyyənləşdirilib. Bura İranın böyük narkotik “trafiki” hesab edilir və əhalisinin də böyük hissəsi narkotik istifadəçisi olaraq müəyyənləşdirilib. Bu ərazilərin insanları Əfqanıstan və Pakistanla daha çox inteqrasiya olunur və əsasən sünni məzhəbdirlər.

İran İslam Respublikasında əhalinin artım dinamikası haqqında statistik məlumatlar gizli saxlanılır və yalnız rəhbərə məruzə edilir. Lakin sosial həyat tərzi haqqında və sosiologiyadan əldə edilən məlumatlar, həyat ukladı və iqtisadi göstəricilər (büdcə bölgüsü) imkan verir ki, bir sıra nəticələr əldə edək. Ölkənin əhali artımı əsasən Kürdüstan, Lorestan, Bəlucistan və Azərbaycan ostanlarının hesabına baş verir. Bəluclar sünni olduqlarından mərkəzi hakimiyyətə xidmət etmirlər. Mərkəzi hakimiyyət də bəlucları çox da hesaba almır. Mərkəzi hakimiyyət milli əyalətlərlə münasibətdə dağıdıcı bir siyasət həyata keçirir.

İranın müxtəlif ostanlarına yayılmış və orada yaşayan Azərbaycanlılar (türklər) iqtisadi amillərə görə Tehranla kommunikasiya etdiyi halda, milli-mədəni kimliyini Təbrizlə identifikasiya edir. Özünü Təbriz türkü, Azərbaycan türkü və ya sadəcə olaraq türk kimi təqdim edir. Dogrudur ki, türkcəni də yaxşı bilmir, bir çox hallarda fikrini ifadə etmək üçün lazım olan kəlmələri tapıb-deyə bilmir, ansaq türk olmasını bilir və iftixarla etiraf edir.

Göründüyü kimi, İran cografiyasının bütün məntəqələrində yaşayan və bir ostanlarda əksəriyyət təşkil edən türk müsəlmanlar, klassik Cəfəri şiələridir. Yalnız azərbaycanlılar əhalinin yarısını, qaşqayilar və türkmənlərlə birlikdə götürdükdə isə əhalinin 60-65 faizini təşkil edirlər.

İran coğrafiyasında klassik fars etnosuna mənsub olan xalq əhalinin 25-30 faizindən artıq deyildir. Diqqəti cəlb edən odur ki, fars təəssübünü ifadə edən və irançılıq təbliğatı edənlər də əsasən farslar deyillər. Əlbəttə ki, Əfqanıstan və Tacikistanın fars, dəri dilli xalqları İrana inteqrasiya olunarsa rəqəmlər və nisbətlər əsaslı şəkildə dəyişə bilər.



*Pərviz Kazımi,*

*Cross Media Təhlil Mərkəzinin analitiki, fəlsəfə doktoru*